

# Xalqının taleyinə günəştək doğulmusan!

*Fəth etdiyin zirvədən uca zirvə yox daha,*
*İndi həmin zirvədən xalqın baxır sabaha!*
*Xalqın bütöv bir ordu, Sən Ali Baş Komandan!*
*Tarixdə ən möhtəşəm Zəfəri Sən çalmısan!*

*Sən ey Ölkə Rəhbəri, Sən ey Dövlət Başçımız,*
*Başımızda əbədi qalibiyyət tacımız!*
*Sən ey Odlar Yurduma Yeni Bir Tarix Yazan,*
*Sən ey əbədiyaşar, cahanşümul Qəhrəman!*

*Heydər dühası olub əsrə yol xəritəmiz,*
*Qəlbimizdə yaşayan ən əziz xatirəmiz!*
*Xalqının taleyinə günəştək doğulmusan,*
*Əzminlə sübut etdin, Ulu Öndər oğlusan!*

*...Şöhrətin sığan deyil bir şeirin çərçivəsinə,*
*Milyonlar qoşulacaq Atəşinin səsinə!*
*Sən bütün varlığınla Vətəninə bağlısan!*
*Güclüsən, çünki daim ədalətlə, haqqlasan!*

**Cavanşir Atəşi (Qocayev)**
**Daşkəsən rayon Ağsaqqallar şurasının sədri, şair, ASKEF-in (Avrasiya Sənət Kültür Ədəbiyyat Bilim Federasiyasının) Daşkəsən rayonunda regional təmsilçisi, "Beynəlxalq Mikayıl Müşfiq mükafatı" laureatı**